YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

2021.- 13 noyabr.- S.8.

# Musa Yaqubun şeirləri Rusiya ədəbiyyat portalında



Rusiyanın populyar “Ollam.ru” ədəbiyyat portalı “Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə” layihəsi çərçivəsində (ADTM) Azərbaycanın Xalq şairi Musa Yaqubun rus dilinə tərcümə olunmuş “Həsrət adası” və “Sənin ürəyində” şeirlərinin yayınına başlayıb. Şeirlərin rus dilinə tərcümə müəllifi - tanınmış Rusiya şairi və tərcüməçisi Ravil Buxarayevdir.

Qeyd edək ki, geniş oxucu kütləsi tərəfindən izlənilən portal, mütəmadi olaraq səhifələrində A.Puşkin, N.Nekrasov, M.Lermontov, A.Blok, S.Yesenin, A.Axmatova kimi dünya şöhrətli şairlərin yaradıcılığını işıqlandırır.